**UOT 781**

**Leyla Cumayeva**
**Azərbaycan Milli Konservatoriyanın dissertantı**
**AZ 1073, Bakı, Ə.Ələkbərov 7**
**E-mail**: leyla.cumayeva@mail.ru

# MƏMMƏD QULİYEVİN "ALDANMIŞ ULDUZLAR" OPERASININ ƏSAS KOMPOZİSİYA XÜSUSİYYƏTLƏRİ

**Xülasə:**Məmməd Quliyevin görkəmli dramaturq M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti əsasında yazdığı "Aldanmış ulduzlar" operası Azərbaycan musiqi mədəniyyəti üçün yeni olan opera satiranın ilk nümunəsidir. Təqdim olunmuş məqalədə M.Quliyevin operasının kompozisiya quruluşunun ümumi xarakteristikası açıqlanmışdır.

**Açar sözlər :** opera, leytmotiv, satira, modern, "Aldanmış ulduzlar" , Məmməd Quliyev

Yaradıcılığa XX əsrin 60-cı illərində başlayan Qara Qarayev məktəbinin yetirməsi olan bəstəkar və pedaqoq Məmməd Mehdi oğlu Quliyev görkəmli Azərbaycan dramaturqu Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" ("Hekayəti - Yusif Şah") povesti əsasında "Aldanmış ulduzlar" operasını yazmaqla Azərbaycan musiqi mədəniyyəti üçün yeni olan opera-satira janrının yaradıcısı olmuşdur. Bu opera məzmununa və kompazisiya quruluşuna görə ən orijenal və mürəkkəb quruluşlu opera olaraq musiqi mədəniyyətimizə daxil olmuşdur. Belə tipli səhnə əsərini yazmaqla bəstəkar milli opera janrı çərçivəsindən çıxmağa müvəffəq ola bilmişdir. Operanın səhnəyə qoyulmasında Azərbaycan incəsənətində yaradıcılığı ilə öz sözünü demiş peşəkar nümayəndələri iştirak etmişlər. Libretto müəllifi V.Paşayev, Azərbaycanın tanınmış quruluşcu rejissoru Ə.Nemətzadə, musiqi rəhbəri və dirijor R.Abdullayev, quruluşcu rəssam Ə.Almaszadə, xormeysterlər N.Məlikov, G.Koryakin, görkəmli Azərbaycan baletmeysterləri R. Axundova və M.Məmmədov olmuşdur. Opera ilk dəfə 1977-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında səhnəyə qoyulmuşdur. Amma təəssüf ki, bir neçə tamaşadan sonra opera repertuardan çıxarılmışdır.

Mirzə Fətəli Axundzadə 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" ("Hekayəti-Yusif şah") povesti ilə Azərbaycan ədəbiyyatında realist nəsrin -povest janrının əsasını qoymuşdur. İran feodal üsul-idarəsinin ictimai nöqsanlarının, ölkənin ali feodal dövlət başçılarının kəskin satira atəşinə tutulması və maarifçi, humanist hakim ideyanı təbliğ edən bu povest dünya maarifçi nəsrinin orijinal, parlaq nümunələrindən biri kimi

qiymətləndirilmişdir. M.F. Axundzadə bu əsərində fanatikliyi, nadanlığı tənqid etməklə yanaşı, rüşvətxorluğu, özbaşınalığı, haqsızlığı da ifşa etmişdir. "Aldanmış kəvakib" ("Hekayəti-Yusif şah") povestinin dramaturgiyasında əsas konflikti hökmdar və xalq problemi təşkil edir. Əsərin mövzusu, süjeti İran tarixçisi İsgəndər bəy Münşinin "Tarixi-aləm-arayi-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərindən götürülmüşdür. M.F.Axundzadə tarixi hadisələrə öz məqsədlərinə uyğun şəkildə yanaşmış, fikir və ideyalarını əlavə edərək genişləndirmiş və dərin ictimai-siyasi məzmunlu, bədii dəyərə malik əsər yaratmağa müvəffəq olmuşdur. O, mühafizəkar feodal cəmiyyətinin nöqsanlarını və ədalətsiz üsul-idarəsinin eybəcərliklərini İran şahı Şah Abbas və onu əhatə edən vəzirlərinin simasında ifşa etmişdir. Povestdə hər bir surətin tipik özünəməxsus cəhətlərinin təsvirinə daha çox diqqət yetirilmiş, ali dövlət rəhbərlərinin zahiri görünüşü ilə daxili aləmləri arasında mövcud olan ziddiyyət real təsvir vasitələri ilə diqqətə çatdırılmışdır. Əsərdə müəllif maraqlı və eyni zamanda müxtəlif insan obrazları yaratmışdır. Onların hər birinin özünəməxsus fərdi xüsusiyyətləri ilə yanaşı, oxşar cəhətlərinin də olduğunun şahidi oluruq.

Povestdə Mirzə Fətəli Axundzadənin əsas tənqid hədəfi Şah Abbas xarakteridir. Onun ən xarakterik xüsusiyyəti bacarıqsız və despot hakim olmasındadır. Bu səbəbdən onun hakimiyyəti dövründə ölkə acınacaqlı vəziyyətə düşümüş, insanlar aclıq, səfalət içində viran qalmış kəndlər və şəhərlərdə yaşayırdılar. Əsərdə mənfi surətlərə qarşı yazıçı öz maarifçilik ideyalarını təbliğ etmək üçün Şah Abbas surətinin əksinə olaraq Yusif Sərrac surətini yaratmışdır. Yusif Sərrac müəllifin arzuladığı, həyatda görmək istədiyi, xalqa yaxın olan ağıllı və ədalətli bir hakim obrazıdır. O, dindar ailədə doğulub boya-başa çatmış, ruhani təhsilli olsa da, din xadimlərinin ikiüzlülüyü onu bu sahədən üz döndərməyə məcbur etmişdir. O, sərraclıq (at yəhəri düzəltmək) sənətini özünə peşə seçmişdir. Yusif Sərrac açıq fikirli olduğu üçün şahın zülmü, məmurların özbaşınalıqları, ruhanilərin ikiüzlülüyü barədə hər yerdə söhbət açır, elə buna görə də ulduzların toqquşması təhlükəsi yarananda saray əyanları Yusif Sərracı şahlıq taxtına əyləşdirirlər ki, xətər ona dəysin. Şahlıq taxtına əyləşən Yusif Sərrac qısa bir müddətdə ölkədə islahatlar həyata keçirir, xalqın mənafeyinə uyğun gələn əmrlər verir. O, ilk növbədə nadan və yaltaq məmurları saraydan uzaqlaşdırır, münəccimliyi ləğv etdirir, vilayət hakimlərinə xalqa ədalətli davranmağı tapşırır, ölkədə xalqın mənafeyinə uyğun vergi sistemini tətbiq edir, şəhər və kəndlərin, yolların abadlaşdırılmasına başlanılır. O, susuz yerlərə su çəkilməsi, məktəblər, xəstəxanalar tikilməsi barədə sərəncam verir.

Təsadüf nəticəsində hakimiyyətə gətirilən Yusif Sərrac qısa müddət ərzində özünü ağıllı, ədalətli və uzaqgörən, xalqın, ölkənin mənafeyini düşünən bir şah kimi təsdiqləyir. Lakin ömür boyu zülm, ətalət, asılılıq altında yaşayan xalq yeni hökmdar olan Yusif Sərracın yaratdığı humanist qayda-qanunları qəbul edə bilmir və üsyan qaldırıb Yusif Sərracı taxtdan salmağa müvəffəq olur.

**Yusif Sərracla Şah Abbasın** müqayisəsi onların xarakter, davranış, həyata baxışları arasındakı fərqin aşkara çıxarılmasına imkan yaradır.

Bəstəkar Məmməd Quliyev "Aldanmış ulduzlar" operasında M.F.Axundzadə ideyasına əsaslanaraq bu konftini daha geniş, hərtərəfli açmaq üçün bir neçə janrdan montaj prinsipinə əsaslanaraq müştərək şəkildə istifadə etmişdir. Bunlardan: dram teatrı, balet, komediya dell`art və pantomima cizgilərini birləşdirən sintetik forma olan opera janrı vasitəsilə çatdırmağa çalışmış və bunun öhtəsindən uğurla gələ bilmişdir. Əsərin

janr diapazonunu genişləndirməyə çalışmaqla müəllif və librettoçu operada qədim milli teatr formalarının, milli xalq bayramlarında meydanlarda tamaşa halında nümayiş etdirilən "Qaravəlli" tamaşa ənənələrini canlandırmağa cəhd göstərmişdirlər. Belə bir forma yəni "teatrda-teatr" forması xalq komik nağıllarının, oxşamalarının və teatr tamaşalarının müxtəlif personajlarını (Kosa, Keçəl kimi ) operaya daxil etməyə imkan verir. Operada həmçinin Novruz bayramı tamaşalarında iştirak edən Kosa və Keçəl obrazlarından başqa, Başbilən (vəzir), Bəhbəhani (saray şairi), Yumruqoğlu (sərkərdə) kimi obrazlar da mövcuddur.

"Aldanmış ulduzlar" operasının kompazisiya quruluşunu musiqi materialının sanki xəttat incəliyi ilə ifadə edilməsi, xırdalıqlara əsaslanaraq çox epizodluluq istəyi ilə bağlı olaraq səhnə hərəkətlərinin tez-tez dəyişilməsi təşkil edir.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, XX əsrin əvvəlləri qədim teatr forması olan komediya dell`art –ın poetikasının, kukla-teatr tamaşalarının, folklor və ritual ənənələrin geri dönüşü kimi qeyd olunmuşdur.

XIX əsr üçün ənənəvi olmayan gözlənilməz dramatik süjetlərə həvəs göstərilən sxematiklik, əsərdə təsvir olunan hadisələrin fəallaşması əks olunmuşdur. Təkpersonaj tendensiyasının qeydə alınması "maska-personajın" yaranmasına gətirib cıxarmışdır.

Həyatın reallıqlarının alleqoriya dili vasitəsilə verilməsinin vacibliyi, işin konseptual planının gücləndirilməsi və nəticə etibarı ilə kompazisiya prinsipinə operanın əsası kimi istinad edilmişdir. Həmçinin qeyri-personalaşma "maska-personaj" fenomeni məhz "Aldanmış ulduzlar" operasında müəllif tərəfindən ilk dəfə istifadə olunmuşdur. XX əsrin birinci yarısında bu tendensiya opera janrının digər inkişaf istiqamətləri ilə mövcud formada özünü adətən bir əsər çərçivəsində biruzə verməyə başlamışdır. Müxtəlif avropa, rus bəstəkarlarının S.Prokofyev, İ.Stravinski, eləcə də R.Ştraus, P.Hindemit və başqaların operalarında belə forma bu və ya digər şəkildə müəyyən edilmişdir.

"Yeni-opera" nın ideya-süjet əsasını əsasən aşağıda qeyd olunan xüsusiyyətlər təşkil edirdi:

- Süjet müxtəlifliyində üstünlüyü ümumilikdə vətəndaşlıq mövzusu;
  - sintetik opera janrının birinciliyi,
  - ümumxalq və şəxsi xarakeri birləşdirən toqquşma.

Lirik-dramatik və komik janrda "teatrdan-teatra" üsulunun işlədilməsinin də böyük rolunu qeyd etməliyik. Verilmiş fikir və ideyanın xeyirlə şərin mübarizəsinin maraqlı həllinə interpretasiya, insan həyatlarının saxta və zahiri qiyməti, işıqlı və aydın dramaturgiya, bir neçə hissəyə ayrılan süjet xətti, müxtəlif və orijinal kompazisiya quruluşlarının istiqamətinin dəyişməsi üsulları bütünlükdə öz əksini Azərbaycan musiqi mədəniyyətində novator opera olan Məmməd Quliyevin "Aldanmış ulduzlar" operasında tapmışdır.

"Aldanmış ulduzlar" operanın sintetik janra və montaj prinsipinə əsaslanaraq yazılması dramaturji inkişafda leytmotiv sisteminin inkişafına maneçilik törətmişdir. Məhz buna görə də operada yalnız iki əsas leytmotiv – ulduzların obrazını təsvir edən və operanın mərkəzi qadın obrazı olan Səlmanın leytmotivi verilmişdir.

Məmməd Quliyev operada ilk olaraq simvolik məna daşıyan ulduzların leytmotivini vermişdir. Ulduzlar öz konsepsiyasında (süjet, libretto, həm də musiqidə)

simvolik məna daşıyaraq dramaturgiyada "birləşdirmə" və "möhkəmləndirmə" funksiyasını yerinə yetirir.

Mirzə Fətəli Axundzadənin povestindən fərqli olaraq, Məmməd Quliyev "Aldanmış ulduzlar" operasında ulduzlara daha çox simvolik məna vermişdir. Bu leytmotiv ulduzların leytobrazı operanın kompazisiya quruluşunu çərçivəyə salır. Ulduzların leytmotivinin operada bütün kompazisiyanı bağlayaraq böyük əhəmiyyət və geniş məna daşıyır.

Əgər dramaturq Mirzə Fətəli Axundzadə povestdə ulduzların obrazını bir dəfə əvvəldə vermişdirsə, bəstəkar Məmməd Quliyev operada dramaturji üsul kimi "dairəvi çərçivə" metodundan istifadə edərək ulduzların obrazını həm də operanın finalında vermişdir. İlk dəfə ulduzların leytmotivi ilə Proloqda tanış oluruq.

Bu leytmotiv statik əhəmiyyət daşıyaraq melodiya şəklində verilməməsinə baxmayaraq, bir notun təkrarlanaraq harmoniya dəyişkənliyi hesabına zənginləşərək inkişaf etmişdir. Bəstəkar bu metodla göydə sayrışan ulduzların obrazını göz önündə canlandırmağa müvəffəq olmuşdur. Operanın librettosundan, eləcə də klavir və patiturasından göründüyü kimi ulduzların leytmotivi təkcə Axund obrazı ilə bağlı deyildir. Ulduzların leytmotivinə biz həmçinin I aktda Kosa və Keçəlin ulduzların öncədən görücülüyündən bəhs olunan səhnədə rast gəlirik.

Operanın digər leytmotivi isə mərkəzi qadın obrazı olan Səlmanın leytmotividir. Onun obrazının işlənməsində N.A.Rimskiy-Korsakov kimi M.Quliyev də oriental üsüllardan (Qızıl xoruz" operasında mərkəzi qadın obrazlarından olan Şemaxi çariçasının (şahzadəsi)) istifadə etmişdir. Səlmanın leytmotivi ilə də ulduzların leytmotivi kimi ilk dəfə operanın proloqunda tanış oluruq. Operanın məzmununa nəzər salsaq aydın şəkildə görünür ki, Şah Abbas bekarçılıqdan göydəki ulduzları sayır və bu zaman sarayda göz dustağı saxladığı Səlmanı yadına salır. Bu zaman sekundalı xromatik notlarla Səlmanın leytmotivi səslənir.

Operda Səlmanın leytmotivindən başqa, həmçinin onun leytintonasiyaları da verilmişdir. II aktda intraduksiyada orkestr və vokal partiyasında, eləcə də III aktın sonunda Səlmanın leytintonasiyası verilmişdir. III aktın əvvəlində verilmiş bu leytintonasiya Coda apofeoz şəklində verilmişdir. Səlmanın leytintonasiyası sevginin İşığın qalibiyyət simvoluna çevrilir və operanın finalında 4 dəfə səslənir.

Leytmotlərin məhz bu şəkildə verilməsi bəstəkarlar arasında yenilikçiliyi, əksər musiqi üslublarından yaradıcılığında istifadəsi ilə seçilən bəstəkar Məmməd Quliyevin özünəməxsus yazı üslubunun göstəricilərindən biridir.

**Ədəbiyyat:**

Operanın klaviri
1.https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_Quliyev_(b%C9%99st%C9%99kar)
2.http://musicacademy.edu.az/bestekar-gorkemli/378-mamed-quliyev.html
3.http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=29
4.https://azertag.az/xeber/Bestekar_Memmed_Quliyevin_xatiresi_anilmisdir-521352
5.http://anl.az/down/meqale/525/2011/may/cm27.htm

**ЛейлаДжумаева**

**Оссобенности композиции оперы Мамед Кулиева «Обманутые звезды»**

**Резюме**

Опера «**Обманутые звезды**» известного Азербайджанского композитора ученика К.Караева Мамеда Кулиева по мотивам одноименной повести выдающегося Азербайджанского драматурга М.Ф.Ахундова является первым образцом жанра оперы- сатиры в истории Азербайджанской музыкальной оперы. В представленной статье раскрыта обшая характеристика композиционного плана оперы М.Кулиева.

**Ключевые слова:** опера, лейтмотив, сатира, модерн, "Обманутые звезды", Мамед Гулиев.

**Leyla Jumayeva**

**Features of the composition of the opera "Deceived stars"by Mammad Guliyev**

**Summary**

The opera “Deceived stars" by the famous Azerbaijani composer, student K. Karaev Mammad Guliyev, based on the eponymous novel by the outstanding Azerbaijani playwright M.F.Akhundov, is the first example of the opera-satire genre in the history of the Azerbaijan musical opera. The presented article discloses a general description of the compositional plan of the opera by M. Guliyev.

**Keywords:** Opera, the leitmotif, Satire, Nouveau, (modern), "Betrayed stars", Mammad Guliyev

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 21.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Səbinə Mehdiyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**